# Zəfərin Baş Komandanı

***Şuşa işğal edildiyi gündən – 1992-ci il mayın 9-dan ötən 28 il ərzində hər birimizdə bu müqəddəs torpağa tez-gec qovuşacağımıza, yağı tapdağından xilas olunacağı günə şahidlik edəcəyimizə böyük inam vardı. Çünki Azərbaycan əvvəla, bu qələbəyə, bu uğura çatmaq üçün 30 il güclü-qüdrətli ordu yaratmışdı. Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu Silahlı Qüvvələrimiz dahi şəxsiyyətin müdrik varisi Prezident İlham Əliyev tərəfindən modernləşdirilən hərbi birləşməyə çevrilmişdi. Bununla bərabər, dövlətimizin başçısı Ermənistanın işğalçı siyasətinə əsaslanan bu münaqişənin davam etdiyi illərdə müdrik təmkinlə diplomatik sahədə də tədbirlər həyata keçirmiş, beynəlxalq mərasimlərdə Qarabağ həqiqətlərini bütün dünyaya bəyan etmiş, Qarabağ və Şərqi Zəngəzurun Azərbaycanın əzəli-əbədi bir hissəsi olduğunu davamlı şəkildə diqqətə çatdırmışdı. Ölkə rəhbəri işğal dövründə bu məsələlərə yanaşı, möhkəm, sarsılmaz Xalq – Prezident vəhdətinin yaradılmasına da xüsusi önəm vermişdi.***




Vətən müharibəsinin ilk günlərindən Silahlı Qüvvələrimizin əldə etdiyi ardıcıl qələbələrlə torpaqlarımızın düşməndən təmizlənməsi ordumuzun Şuşaya yaxınlaşmasından xəbər verirdi. Dövlətimizin başçısı da bu məqamı nəzərə alıb, çıxışlarının birində Şuşa Zəfərinə, Şuşa Uğuruna bir nəfəs qədər yaxın olduğumuzu bildirirdi. Ali Baş Komandanımız Türkiyə mətbuatına verdiyi müsahibələrin birində də bu barədə söhbət açaraq, “Şuşa azad edilmədən bu əməliyyat tamamlanmış sayılmaz, yarımçıq qalar” – söyləyirdi. Bax, bütün bu məqamlar xalqımızda Şuşa sevincini, Şuşa bəxtəvərliyini tezliklə yaşayacağımızı bu tarixi hadisəyə şahidlik edəcəyimizə ümid və inamımızı gücləndirirdi.

Nəhayət, o gün gəldi, o xoşbəxtlik çağını yaşamaq qismətimizə yazıldı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də xalqımızı Şuşanın işğaldan azad edilməsi münasibətilə təbrik edərək dedi: “Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!”

Dövlətimizin başçısı həmçinin bu qədim şəhərimizin Azərbaycan tarixində xüsusi yer tutduğunu, azərbaycanlıların əsrlər boyu burada yaşayıb-yaratdıqlarını bildirdi. Prezident daha sonra əlavə etdi ki, Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi, məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi, məscidlərimizi bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir: “Bir neçə il bundan əvvəl – 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək, biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır”.

Azərbaycan Prezidenti, Ali Baş Komandan xalqımıza Şuşanın işğaldan azad edilməsi müjdəsini verməsini həyatında bəlkə də ən xoşbəxt günlərindən biri olduğunu bildirdi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”

O gün Ali Baş Komandan Fəxri xiyabanda qüdrətli dövlət xadimi Heydər Əliyevin, Şəhidlər xiyabanında şəhidlərimizin məzarlarını ziyarət etdikdən sonra xalqımıza verdiyi həmin müjdə – “Şuşa azad edildi” xəbəri bütün planetə yayıldı, dünya azərbaycanlılarına necə deyərlər, qol-qanad verdi, haqq-ədaləti dəstəkləyən dost ölkələri sevindirdi. Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazılan, bütövlük, dəyanət, rəşadət, ləyaqət kimi dəyərlərin simvoluna çevrilən Şuşa müjdəsi Ali Baş Komandan İlham Əliyevə atanın-müdrik tarixi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin – “Mən ona özüm qədər inanıram” etimadının təsdiqi idi. Şuşa müjdəsi “Qisas qiyamətə qalmaz” nidasının, yurd, torpaq uğrunda canlarından keçən şəhidlərimizin qisaslarının alınmasının gerçəkləşməsinin sübutu idi.

Şuşa Zəfəri Azərbaycan əsgər və zabitlərinin igid, cəsur və qorxmazlığını, peşə bacarığı və ruh yüksəkliyini bütün dünyaya nümayiş etdirdi, ermənilərin “məğlubedilməz ordusu” haqqında mifi, yalanı, uydurmanı tamamilə dağıtdı. Şuşa Zəfəri Prezident, Ali Baş Komandan İlham Əliyevin əsl siyasətçi, diplomat və sərkərdə kimi fəaliyyətinin məntiqi nəticəsidir. Şuşa Zəfəri Azərbaycan dövlətinin siyasi-iqtisadi və hərbi qüdrətinin parlaq ifadəsi kimi qiymətləndirildi.

Bu məqamda ukraynalı hərbi analitik Aleksey Arestoviçin feysbuk səhifəsində yazdığı sözləri xatırlatmaq istəyirəm: “…Azərbaycan əsgəri Şuşanı piyada döyüşləri ilə, daşına bilən ağır sursatlarla, duman içində, göz-gözü görməyən çətin hava şəraitində dağlardan keçərək qaytardı. Azərbaycan əsgəri Şuşanı PUA-larsız, tanksız, artilleriyasız işğaldan azad etdi. Bu, “… hər şey dronlarla edildi ” deyənlərin nə qədər haqsız, ədalətsiz olduqlarını bir daha təsdiqlədi. Bu, israillilərin 1967-ci ildə Ağlama Divarına çıxmasına bərabər, bəlkə də ondan üstün bir döyüş idi… Bu, Vətənə qayıdış, ədalətli tarixə qayıdış idi. Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu?! Sualı cavablandırmaq, nə isə demək, danışmaq çox çətindir. Şəhidi çiyinlərində, yaralını qollarında, döyüşə-döyüşə, qan-tər içində nəfəsini belə dərmədən qalxırdı üzü dağ yuxarı Şuşaya doğru Azərbaycan əsgəri…”.

Bax, belə bir ordunu yaradan ulu öndərin hərbi strategiyasını uğurla reallaşdıran Prezident, Ali Baş Komandan İlham Əliyevdir. Dövlətimizin başçısının rəhbərliyi ilə bu gün də Silahlı Qüvvələrimiz gücləndirilir. Bu gün Qarabağ torpağı yeni həyata qaytarılır, yenidən tikilib-qurulur, abadlaşdırılır, dünyanın ən möhtəşəm bölgələrindən birinə çevrilir.

Bəli, Qarabağ, Şərqi Zəngəzur bu gün yenə də işğaldan əvvəlki kimi, bəxtəvər, xoşbəxt günlərini yaşayır, sevinc dolu sabahların ümidi ilə neçə-neçə uğura imza atır, abadlıq-quruculuq işləri gündən-günə geniş vüsət alır, erməni vandalizminin qurbanına çevrilən müqəddəs ocaqlara, tarixi, mədəni abidələrə həqiqi sahiblərinin – sakinlərin gücü və əzmi ilə yenidən “nəfəs” verilir.

**Vaqif BAYRAMOV,**
**“Xalq qəzeti”**